

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 218 (21.628)

18 noyabr 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev dedi:

– Dünən biz görüşmüşdük. Dünənki çıxışımda qeyd etdiyim kimi, bu qlobal tədbirə ev sahibliyi etmək böyük şərəfdir. Dünyanın bu qədər çoxlu sayda aparıcı xəbər agentliklərinin nümayəndələrinin Bakıda toplaşması çox əlamətdar haldır. Bu, ölkəmizin təqdimatı üçün yaxşı imkan yaradır. Dünən qeyd etdiyim kimi, müstəqil ölkə kimi Azərbaycan gənc bir dövlət olmasına baxmayaraq, zəngin tarixə, ənənələrə, mədəniyyətə malik bir ölkədir. Ümidvaram ki, sizin gəzintilərə çıxaraq Azərbaycanın bir sıra tarixi yerlərini görmək və Azərbaycan haqqında daha çox məlumat əldə etmək imkanınız olacaq.

Sonra Dünya Xəbər Agentlikləri Konqresi Şurasının (NACO) prezidenti, Böyük Britaniyanın Press Association Agentliyinin baş icraçı direktoru Klayv Marşal, Dünya Xəbər Agentlikləri Konqresinin və Səudiyyə Ərəbistanının Səudiyyə Press Agentliyinin (SPA) prezidenti Abdullah bin Fəhd Əl-Hüseyn çıxış ediblər.



## "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı ikigünlük beynəlxalq elmi simpozium öz işinə başlayıb



***Noyabrın 17-də Naxçıvan Dövlət Universitetində "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı ikigünlük beynəlxalq elmi simpozium öz işinə başlayıb. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Naxçıvan Dövlət Universiteti, Türkiyə Respublikası Nazirlər Kabinetinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu, Atatürk Araşdırma Mərkəzi və İğdır Universitetinin birgə təşkilatçılığı ilə keçirilən simpoziumun açılış mərasimində Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.***

Atatürk Araşdırma Mərkəzinin rəhbəri Mehmet Ali Beyhan çıxış edərək bildirib ki, tarixboyu türklər öz tarixi və mədəniyyətləri ilə seçiliblər. Dünya sivilizasiyasının əsas məskənlərindən hesab edilən Dəclə və Fərat çayları arasındakı ərazidən – Mesopotamiyadan yayılan Şumer mədəniyyəti türk mədəniyyətinin nə qədər qədim tarixə söykəndiyini göstərir. Ümumiyyətlə, qədim türklər, əsasən, çay vadilərində məskunlaşıblar. Çünki su ehtiyacını təmin etmək, əkin-biçinlə məşğul olmaq, həyatı davam etdirmək üçün çay hövzələri mühüm əhəmiyyətə malikdir. Mərkəzi Araz hövzəsində min illərdir, qədim şəhər mədəniyyəti ilə diqqətçəkən Naxçıvan diyarı da bu bölgənin qədimlərdən üzübəri türk tarixi və mədəniyyətində mühüm rolu olan ərazilərindəndir. Naxçıvan torpağının qədim tarixi bu ərazidə formalaşmış ilkin sivilizasiyanın mövcudluğundan xəbər verir. Naxçıvan türk toplumları üçün istər tarixi, istərsə də müasir əlaqələr baxımından əvəzolunmaz məkandır. Bu mənada, Naxçıvanın ortaq türk tarixində yeri danılmazdır. Buna görə də Naxçıvanda belə bir nüfuzlu beynəlxalq elmi simpoziumun keçirilməsi hər birimiz üçün xüsusi əhəmiyyətə malikdir.

Simpozium iştirakçılarını ali təhsil ocağında görməkdən məmnun olduğunu bildirən Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisi çox qədim tarixə malikdir. Türk dünyasının ən qədim yaşayış və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan ərazi baxımından kiçik olsa da, bura min illərin tarixini yaşadan qədim yaşayış yerləri, tarixi abidələrlə zəngindir. Muxtar respublika ərazisindəki mağaralar, qədim yaşayış yerləri, möhtəşəm qalalar, qayaüstü rəsmlər tarixin dərin qatlarından xəbər verir. Gəmiqaya abidəsi Naxçıvanın ilkin yaşayış məskəni olduğunu elmi əsaslarla təsdiq etməklə yanaşı, həm də Azərbaycanın ən qədim dövr incəsənətinin, mənəvi və maddi-mədəniyyətinin əhəmiyyətini qoruyub saxlayır. Həmçinin Qazma mağarası, I və II Kültəpə, Xaraba Gilan, Ovçular təpəsi, Oğlanqala və yüzlərlə başqa tarix və mədəniyyət abidələri keçmişimizi bu günə daşıyan tarixi yaddaşımızdır. Bu tarixi və mədəni zənginliyin nəticəsidir ki, Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan Şərqlə Qərbi birləşdirən mühüm ticarət mərkəzlərindən biri olub. Bu gün "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpoziumun məhz Naxçıvanda keçirilməsi bu qədim diyarın keçmişdə olduğu kimi, bu gün də türk tarixinin coğrafiyasında, müxtəlif əlaqələrin qurulmasında mühüm rol oynadığını bir daha təsdiq edir.

Türkiyə Respublikası Nazirlər Kabinetinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun rəhbəri Derya Örs çıxışında bildirib ki, Naxçıvanda belə bir beynəlxalq simpoziumun keçirilməsi hər birimiz üçün qürurvericidir. Türkiyənin Anadolu bölgəsi, Qafqaz və Mərkəzi Araz hövzəsi əraziləri də daxil olmaqla türk tarixi və mədəniyyətinin qarşılıqlı öyrənilməsi və bu istiqamətdə müzakirələrin aparılması ümumtürk dünyasının maraqları baxımından çox böyük rola malikdir. Naxçıvanda belə bir konfransın keçirilməsi bir tərəfdən bu bölgənin qədim tarix və mədəniyyətə malik olmasından irəli gəlirsə, digər tərəfdən türk tarixinin bir bütöv olduğunun göstəricisidir. İki gün ərzində aparılacaq müzakirələrdə məqsəd bu ərazilərdə uzun illər mövcud olmuş dövlətlərin, bəyliklərin, xanədanlıqların, tarixi şəxsiyyətlərin yaratmış olduqları tarix və mədəniyyətləri bir daha öyrənmək və ortaq türk tarixinin yazılması layihəsi ilə bağlı münbit şərait hazırlamaqdır. İnanırıq ki, hər iki tərəfdən 40-a yaxın elm adamının iştirakı ilə bu istiqamətdə aparılan müzakirələr türk tarixi və mədəniyyətinin maraqlı tərəfləri ilə tanış olmağımıza imkan verəcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov deyib ki, bu gün Naxçıvanda keçirilən beynəlxalq simpoziumun böyük mənası var. Bundan əvvəl hər iki dövlətin rəsmiləri arasında ortaq türk tarixinin yazılması ilə bağlı razılıq əldə olunmuşdu, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna da bununla bağlı tapşırıqlar verilmişdi. Biz də öz növbəmizdə Atatürk Araşdırma Mərkəzi ilə protokol imzaladıq və əsas məqsədimiz də tarixdəki türk dövlətləri və bu dövlətlərin qurulmasında rolu olmuş şəxsiyyətlərin qarşılıqlı şəkildə tanıdılmasıdır. Mənim üçün qürurvericidir ki, belə bir möhtəşəm tədbir Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda keçirilir. Çünki Naxçıvan çox qədim tarixə və mədəniyyətə malikdir. Böyük İpək Yolu üzərində yerləşən Naxçıvan tarixən Avropa ilə Asiyanı birləşdirən körpü rolunu oynayıb. Bu diyarın qədim sakinləri tarixboyu bura edilən hücumların qarşısını mərdliklə alıblar. Xüsusilə ötən əsrin əvvəllərində erməni daşnakları və onların havadarlarının işğalçı hücumlarının qarşısı yerli naxçıvanlılar tərəfindən mərdliklə alınıb. Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycanın əsas torpaqlarından ayrı düşən Naxçıvan dövrün bütün çətinliklərinə sinə gərərək tarixdə layiqli yerini tutub və bu gün özünün yeni inkişaf yoluna qədəm qoyub. Dünyanın ilkin sivilizasiya mərkəzlərindən olan bu qədim diyar türk tarixinin öyrənilməsi və təbliği baxımından çox əhəmiyyətli məkandır.

Çıxış edənlər simpoziumun işinə uğurlar arzulayıblar.

"Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpozium bölmə iclasları ilə öz işini davam etdirir.

Səbuhi HƏSƏNOV

## Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri muxtar respublikadan xoş təəssüratlarla ayrılıb

***Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua noyabrın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın təhsil, mədəniyyət, səhiyyə müəssisələri ilə tanış olub.***



"Naxçıvan" Universitetinə gələn diplomata ali təhsil ocağı barədə ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, ötən ilin sentyabr ayında "Naxçıvan" Universitetində İnformasiya Texnologiyaları Mərkəzi yaradılıb. Mərkəzdə Çin Xalq Respublikasının "Huawei" şirkətinin istehsalı olan avadanlıqlar, yeni nəsil çeviricilər və şəbəkə avadanlıqları qurulub. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin dəstəyi ilə "Huawei" şirkəti tərəfindən "Naxçıvan" Universitetində Azərbaycanda ilk dəfə olaraq "Gələcəyin İKT sahəsindəki toxumları" adlı proqram-layihə həyata keçirilib. Həmin proqram-layihə çərçivəsində Naxçıvandan olan 6 tələbə "Huawei" şirkətində istehsalat təcrübəsi keçib. İkihəftəlik proqram çərçivəsində tələbələr əvvəlcə Pekinə gedərək Çin mədəniyyəti ilə tanış olublar. Daha sonra onlara "Huawei" şirkətinin Şenjen şəhərində yerləşən ofisində müasir texnologiyaların öyrənilməsi və istehsalı üzrə təlimlər keçirilib.

Səfir "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub.

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhuanın Naxçıvan Muxtar Respublikasına səfəri noyabrın 16-da başa çatıb.

* * *



Diplomat "Şərq qapısı" qəzetinə müsahibəsində muxtar respublikaya səfərinin çox uğurla başa çatdığını bildirib, qədim Naxçıvanda təhsilin, mədəniyyətin, səhiyyənin sürətlə inkişaf etdiyini, tarixi abidələrə böyük diqqət və qayğı göstərildiyini, Naxçıvan şəhərinin gündən-günə gözəlləşdiyini vurğulayıb. Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua deyib: "Naxçıvan Muxtar Respublikası bu gün sosial-iqtisadi baxımdan çox sürətlə inkişaf edir. Muxtar respublikaya səfərim zamanı bunun bir daha şahidi oldum. Mən Azərbaycanda səfir kimi fəaliyyət göstərdiyim müddətdə artıq ikinci dəfədir ki, Naxçıvanda oluram. Qısa zamanda bura ikinci səfərim bir daha təsdiq edir ki, bizim əlaqələrimiz sürətlə inkişaf edir".

Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əhəmiyyətli bölgələrindən biri olduğunu vurğulayan Vey Cinhua bildirib ki, qədim Naxçıvan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğulub boya-başa çatdığı diyardır: "Görkəmli dövlət xadimi Heydər Əliyev Çin xalqının böyük dostu olub. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əlaqələrin yaradılması da məhz Onun adı ilə bağlıdır. Ona görə də Çin xalqı dahi şəxsiyyətə böyük rəğbət bəsləyir. Ötən əsrin 90-cı illərində dahi şəxsiyyət Azərbaycanın siyasi həyatında çox mühüm rol oynayan Yeni Azərbaycan Partiyasını məhz Naxçıvanda yaradıb. Bu baxımdan Naxçıvan əhəmiyyətli bir diyardır".

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri muxtar respublika ilə ölkəsinin əməkdaşlığını da yüksək qiymətləndirərək deyib: "Bizim əməkdaşlıq imkanlarımız genişdir. Bu gün Çin Xalq Respublikasının "Huawei" şirkəti Naxçıvanda çox gözəl əlaqələr yaradıb. Bir daha vurğulayıram ki, bizim qarşılıqlı maraqdoğuran məsələlərdə geniş əməkdaşlıq imkanlarımız var. Məhz bunu nəzərə alaraq əlaqələrimizin daha da inkişaf etdirilməsi üçün bir sıra yüksək səviyyəli görüşlər keçirdik, iqtisadi-ticarət, turizm və təhsil sahələrində əməkdaşlığın gələcək perspektivlərini birgə müzakirə etdik. Bir daha əmin oldum ki, əlaqələrimizin yüksələn xətlə inkişafı bundan sonra da davam edəcək".

Rauf ƏLİYEV

Yeniləşən kəndlərimiz

# Gülüstan indi əsl gülüstana çevrilib

*Naxçıvanın elə bir yaşayış məntəqəsi yoxdur ki, həmin ərazinin tarixi əhəmiyyəti olmasın. Çünki bu qədim Azərbaycan diyarının insan ayağı dəyən hər qarışında keçmişin izləri ilə rastlaşmamaq, sadəcə, mümkün deyil. Bəlkə də, buna görədir ki, XVII əsrin məşhur türk səyyahı Övliya Çələbinin “Səyahətnamə”sində Naxçıvanın zəngin tarixi keçmişə malik bir çox yaşayış məskənlərinin adı çəkilir, onların haqqında məlumatlar verilir. Culfa rayonunun Gülüstan kəndi tarixi abidələri, qədim yaşayış yerləri ilə yanaşı, indi müasir abadlığı və inkişafı ilə də diqqəti cəlb edir. Tədqiqatçılar “Gülüstan” sözünün “gül” komponentinə yer, məkan adı bildirən “üstan” sözdüzəldici şəkilçisinin artırılması yolu ilə yarandığını söyləyirlər. Mənası “yaşıllıqda olan güllük, çiçəklik” deməkdir.*



Bəhs edəcəyimiz Gülüstan kəndinin adı isə mərhum dilçi alim Adil Bağırova görə, ərazidə yerləşən Gülüstan qalasının adından götürülüb. Təbii ki, toponimlər xalqın dilində birdən-birə yaranmır, bunun üçün müəyyən əsaslar olur. Kəndin yerləşdiyi ərazi də daxil olmaqla, şərqdə Yaycı kəndinə, şimalda isə Darıdağın ətəklərinə qədər olan ərazilər Culfa düzü sayılmaqla bərabər, həm də tarixən Gülüstan düzü kimi tanınıb. Gülüstan kəndi Culfa rayonunun ən böyük çaylarından olan Əlincəçayın Araza qovuşduğu yerdə salınıb.

XVIII əsrin əvvəllərinə aid “Naxçıvan sancağının müfəssəl dəftəri”ndə Dərəşam nahiyəsinə daxil dörd kənd yaşayış məntəqəsinin içərisində Gülüstan kəndinin də adı çəkilir. Gülüstan türbəsinin yaxınlığında Gülüstan yaşayış yerinə aid divar qalıqlarının aşkar olunması isə ərazinin orta əsrlər dövründə mühüm inkişaf yolu keçdiyini göstərir. Kəndin yaxınlığında Araz çayı üzərində salınmış Ziya-ül Mülk körpüsünün qalıqlarının mövcudluğu ərazinin tarixi əhəmiyyətini daha da artırır. Tarixçilər bildirirlər ki, olduqca möhkəm, son dərəcə hamar və gözəl görünüşə malik körpünün iki yüksək və geniş tağı olub. Xeyli hündür olan körpünün hər iki tərəfində daşdan darvaza var imiş. Tağlardan birinin altından karvansaray kimi istifadə edilirmiş. Maraqlı məqamlardan biri də budur ki, Əmir Teymur 1386-cı ildə Mərənd və Zər dərəsi istiqamətindən Naxçıvana gələrkən bu körpüdən keçib. XIV əsr tarixçisi Həmdullah Qəzvini “Nüzhət əl-qülub” (“Qəlblərin əyləncəsi”) əsərində məlumat verir ki, körpünü Ziya-ül Mülk Naxçıvani tikdirib. Bundan əlavə, kəndi əhatə edən qayaların arasında bu günədək mövcudluğunu qoruyub saxlayan və üç salondan ibarət olan Dərəşam mağarası da maraqlı arxeoloji abidələrdəndir. Araşdırmalar zamanı buradan orta əsrlərə aid şirli və şirsiz keramika parçaları aşkarlanıb. Ön tərəfi əhəng məhlulundan istifadə edilməklə hörülmüş mağara ən çətin hava şəraitində və hər hansı təhlükədə etibarlı sığınacaq kimi istifadə olunub.

Sovetlər Birliyi dövründə əksər kənd yaşayış məntəqələri kimi, Gülüstan kəndi də diqqətdən kənarda qalıb. Bircə onu qeyd etmək kifayətdir ki, Əlincəçayın kənddən keçən hissəsi üzərində körpünün salınması 1987-ci ilə təsadüf edir. Bu körpü kənddən rayon mərkəzinə gedən avtomobillər üçün əsas keçid rolunu oynayır. O vaxtadək isə çayın az sulu yerlərindən keçid kimi istifadə olunurmuş. Ancaq bütün çətinliklərə baxmayaraq, kollektiv təsərrüfatçılığın geniş yayıldığı həmin dövrdə Gülüstan kəndinin zəhmətkeş insanlarının sayəsində burada əkinçilik, meyvəçilik, heyvandarlıq inkişaf etdirilib. Araz çayının sahilində – kənd ərazisinə aid sahələrdə tut bağlarının salınması baramaçılığın inkişafında əhəmiyyətli rol oynayıb. Ötən əsrin sonlarına doğru baş verən məlum ictimai-siyasi hadisələr kəndin təsərrüfat həyatına da öz təsirini göstərib. Muxtar respublikanın o dövrdəki məlum problemləri Gülüstan sakinlərinin də əlini təsərrüfatdan soyudub. Amma bu çətinliklər müvəqqəti xarakter daşıyıb. 1995-ci ildən başlayaraq muxtar respublikada aparılan köklü islahatlar gülüstanlıların da yolunu açıb. Xüsusilə torpaq islahatlarından sonra hər kəs torpaq sahibi olub, sonrakı illərdə göstərilən dövlət dəstəyi hesabına kənd sakinləri yenidən torpağa üz tutub, dolanışığını təmin edib. Kənddə olarkən öyrənirik ki, hazırda burada 250 hektara yaxın əkin sahəsi var. Ötən il 138 hektarda taxıl əkini aparılıb ki, bunun da 118 hektarını buğda, 20 hektarını arpa təşkil edib. Digər sahələrdə isə, əsasən, bostan məhsulları və yonca əkini aparılıb. Son illərdə muxtar respublikada meyvəçiliyin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Gülüstan kənd sakinlərinin bu sahəyə marağını artırıb, kənddə xeyli sahədə meyvə bağları salınıb. Həmsöhbət olduğumuz kənd sakinlərindən Balakişi Musayev 2 hektar sahədə ərik, Bəhrəm İsmayılov 3 hektar sahədə alma, Elxan Qasımov isə qarışıq meyvə ağaclarından ibarət bağ salıb. Meyvəçiliyin gəlirli sahə olduğunu bildirən müsahiblərimiz kəndin meyvəçilik ənənələrini bərpa edəcəklərindən inamla danışdılar. Qeyd etdilər ki, indi bunun üçün hərtərəfli şərait də var, bazar da. Soyuducu anbarların istifadəyə verilməsi isə onları bu işə daha da ruhlandırır.

Qeyd edək ki, 2016-cı il Gülüstan kəndi üçün düşərli il olub. Müstəqilliyimizin 25-ci ildönümü ərəfəsində kənddə bir sıra yeni obyektlər istifadəyə verilib. Buradakı 156 şagird yerlik kənd tam orta məktəbinin binası üçmərtəbəlidir. Binada 4-ü elektron lövhəli olmaqla, 13 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Kompüter otağında 13 kompüter quraşdırılıb və internetə qoşulub. Öyrəndik ki, hazırda məktəbdə 67 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 28 müəllim məşğul olur. Ötən tədris ilində məktəbin 5 məzunu olub, onlardan 4-ü ali təhsil müəssisələrinə qəbul olunub.

İkimərtəbəli kənd mərkəzinin binasında isə kənddə fəaliyyət göstərən dövlət qurumları üçün lazımi şərait yaradılıb. Binada rabitə evi, polis sahə və baytarlıq məntəqələri, feldşer-mama məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, statistika otağı, bələdiyyə və klub yerləşir. Aparılan quruculuq tədbirləri zamanı kənddə 1550 metr fiber-optik kabel xətti çəkilib, rabitə evində 384 nömrəlik yeni ATS quraşdırılıb. Poçt xidmətinin təşkil olunması isə kənd sakinlərinə kommunal xidmət haqlarının və digər ödənişlərin aparılması üçün geniş imkanlar açır.

Kənddə istifadəyə verilmiş digər obyekt isə sakinlərin gündəlik ərzaq və sənaye mallarına olan tələbatının ödənilməsinə imkan verən xidmət mərkəzidir. Mərkəzdə iki nəfər işlə təmin olunub.

Kənddə yeni içməli su sisteminin qurulması da sakinlərin böyük sevincinə səbəb olub. “Culfa şəhərinin və ətraf kəndlərin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Culfa şəhərinin girişində inşa olunmuş yeni su anbarından Gülüstan kəndinə içməli su xətti çəkilib. Hazırda kənddə 157 abonent daimi və ekoloji təmiz içməli su ilə təmin olunub, həmin abonentlər üçün sayğaclar quraşdırılıb.

Gülüstan kəndində həyata keçirilmiş quruculuq tədbirləri çərçivəsində kənd avtomobil yolunun yenidən qurulması indi bu yaşayış məntəqəsinə gedib-gələnlərin, eləcə də kənd sakinlərinin rahatlığını təmin edir. Eyni zamanda kəndə uzanan yol üzərindən Gülüstan türbəsinə gedən avtomobil yolu da müasir tələblər səviyyəsində qurularaq istifadəyə verilib.

Yeri düşmüşkən, Gülüstan türbəsi haqqında da danışmaq istərdik. Dünya əhəmiyyətli Gülüstan türbəsinin elmi və tarixi əsaslarla bərpa olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il oktyabrın 7-də Sərəncam imzalayıb. Ötən dövrdə bu tarixi abidə orijinallığı saxlanılmaqla əsaslı şəkildə bərpa olunaraq istifadəyə verilib. Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən olan Gülüstan türbəsi orta əsr Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Gülüstan türbəsinin sərdabəsi kürsülük adlanan yerüstü hissədə yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən isə silindrik quruluşa malikdir. Planda kvadrat olan kəsik piramida yuxarıda düzgün onikibucaqlıya çevrilir. Onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla bəzədilib. Naxçıvan memarlıq məktəbinə məxsus digər türbələrdə olduğu kimi, Gülüstan türbəsində də taxçaların içərisi incə həndəsi ornamentlərlə örtülüb. Zərifliyi, incə memarlıq üslubu və xüsusiyyətləri ilə seçilən abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada “Gülüstan” Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Gülüstan türbəsini ziyarət etdiyimiz zaman əcnəbi bir turistlə qarşılaşdıq. Böyük Britaniya vətəndaşı olan əcnəbi hazırda Hindistanda ingilis dili və ədəbiyyatı üzrə pedaqoji fəaliyyətlə məşğul olduğunu bildirdi. Tarixi abidələrə böyük maraq göstərən qonaq abidəyə heyranlıqla baxır və yerli tərcüməçinin köməyi ilə türbə haqqında məlumatlara maraqla qulaq asırdı. Tərcüməçi bildirdi ki, son dövrlərdə burada bir çox avropalı turistləri müşayiət edib və onlara bu abidə haqqında ətraflı məlumatlar verib. Türbəni ziyarət zamanı Gülüstan kənd tam orta məktəbinin şagirdləri ilə də qarşılaşdıq. V-VIII sinif şagirdləri üçün burada tarix fənnindən açıq dərs keçirildi. Məktəbin tarix müəllimi Pəri Tağıyeva bu cür açıq dərslərin keçilməsinin şagirdlərdə tariximizə qarşı böyük maraq və sevgi oyatdığını bildirdi. Biz isə onlara işlərində uğurlar arzulayıb oradan ayrıldıq.

*Bəli, qədim Gülüstan kəndi indi inkişafının yeni mərhələsinə qədəm qoyub. Kənddə aparılan quruculuq işləri sakinlərin sevincinə səbəb olub. Kənd sakinlərindən Vaqif Babayev, Aydın Məmmədov və yuxarıda adını çəkdiyimiz digər müsahiblərimiz görülən işlərə görə dövlətimizə minnətdarlıqlarını bildirdilər. Onlar Gülüstanın əsl gülüstana indi çevrildiyini dedilər. Arazın həzin axınına əsrlərdir şahidlik edən, Böyük İpək Yolunun qovşağında yerləşən, orta əsrlər Naxçıvanının zəngin mədəniyyətini özündə yaşadan Gülüstan indi bura yolu düşən hər kəs üçün tarix və müasirliyin gülüstanda birləşdiyi məkandır.*

**Səbuhi HƏSƏNOV**

---

*Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi oktyabr ayında da uğurla davam etdirilib.*

## Naxçıvanda müasir rabitə sistemi qurulub

Ötən ayın ən əlamətdar hadisəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi olub. Bu dövrdə Naxçıvan Dövlət Televiziyasının internet saytı hazırlanıb, televiziya internetdə canlı yayıma başlayıb. Muxtar respublikanın turizm potensialını təbliğ etmək məqsədilə dövlət orqanlarının saytında Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytının bannerinin yerləşdiriləcək keçidlər verilməsi istiqamətində işlər davam etdirilib, banner yerləşdirilən saytların ümumi sayı 94-ə çatdırılıb.

Oktyabr ayında muxtar respublikada “Evədək optika” layihəsinin icrası ilə əlaqədar 3 fərdi mənzilə fiber-optik kabel xətti çəkilib, 422 yeni abunəçi genişzolaqlı internetlə təmin olunub. Kompüter kurslarının təşkili də diqqətdə saxlanılıb, 59 dinləyicinin iştirakı ilə 5 ümumi və 15 fərdi qrup yaradılıb. Mövcud avtomat telefon stansiyalarının nömrə tutumlarının artırılması nəticəsində hesabat ayında 201 yeni telefon nömrəsi istismara verilib.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

---

## Avtonəqliyyat xidməti günün tələbləri səviyyəsindədir

Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyi 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar verilmiş tapşırıqların icrasını oktyabr ayında davam etdirmiş, nəqliyyat vasitələri payız-qış mövsümünə hazırlıqla əlaqədar texniki müayinədən keçirilmişdir. Muxtar respublikadakı avtovağzallarda və Avtobus parkında da qış mövsümünə hazırlığın vəziyyəti diqqət mərkəzində saxlanılmış, istilik sistemləri işə salınaraq yoxlanılmış, nasazlıqlar aradan qaldırılmışdır.

Beynəlxalq əməkdaşlığın inkişafı sahəsində fəaliyyət artırılmış, Türkiyə Respublikasının “Metro” turizm şirkəti ilə bağlanmış müqaviləyə əsasən, şirkət oktyabrın 17-dən Naxçıvan-Türkiyə istiqamətində fəaliyyətə başlamışdır. İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə oktyabr ayında Naxçıvandan Bakıya 1626, əks istiqamətdə isə 1490 sərnişin daşınmışdır. Həmçinin muxtar respublika daxilində də sərnişindaşıma xidmətinin səviyyəsi yüksəldilmiş, fəaliyyətdə olan 139 marşrut xəttində 305 ədəd avtobusla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının fəaliyyəti xüsusi nəzarətdə saxlanılmışdır. Muxtar respublikada ötən ay ərzində 488 taksi fəaliyyətini davam etdirmişdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

---

## Qış mövsümündə abonentlər dayanıqlı təbii qazla təmin olunacaq

***“Naxçıvanqaz” İstehsalat Birliyi payız-qış mövsümünə keçidlə əlaqədar 2016-cı ilin oktyabr ayında öz işini daha da gücləndirmiş, qaz təsərrüfatının təhlükəsizliyi və təbii qazdan səmərəli istifadə olunmasını təmin etmək, o cümlədən əhalinin və müəssisələrin təbii qazla təminatının daha da yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görmüş, 106 yeni abonentə təbii qaz verilmişdir. Bu zaman 3411 metr dəmir borudan istifadə olunmuşdur.***

“Naxçıvanqaz” İstehsalat Birliyi tərəfindən istehlakçılara göstərilən xidmətin keyfiyyəti cari ilin oktyabr ayında da artırılmış, xidmətə nəzarət daha da gücləndirilmiş və yaranmış problemlər dərhal aradan qaldırılmışdır. Daxili qaz xətlərinə, avadanlıqlarına qrafik üzrə texniki baxış keçirilmiş, tələb olunan xidmət işləri müvafiq qaydada aparılmış, 283 smartkarttipli qaz sayğacı və mühafizə qutusu quraşdırılmışdır.

Muxtar respublikanın qaz təsərrüfatı şəbəkəsi ərazilər üzrə qaz analizatorları vasitəsilə aşkarlanan 1963 ədəd qaz sızmaları texniki-mühəndis qaydalarına uyğun olaraq müəyyən vaxt ərzində aradan qaldırılmışdır.



Naxçıvan Regional Peşə Tədris Mərkəzində qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursuna rayon, şəhər Qaz İstismar idarələrinin bir qrup işçisi cəlb olunmuşdur ki, bu da qaz təsərrüfatında texniki istismar və texniki təhlükəsizlik qaydalarının tələblərinə riayət etməklə qaz təsərrüfatının səmərəliliyinə, eyni zamanda peşəkar ixtisaslı işçi qüvvəsinin artırılmasına, həmçinin görülən işlərin keyfiyyətinin yüksəldilməsinə böyük zəmin yaradır. Bu istiqamətdə işlər davam etdirilir.

***“Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuat xidməti***

# ƏLİNCƏQALANI bərpa etdirənlər



*Əlincə həm müqəddəsliyi, həm də qəhrəmanlığı ilə Naxçıvanın əsas rəmzlərindən biridir. Xalqımızın yenilməzlik simvolu, Azərbaycanın alınmaz qalası olan Naxçıvanın məğlubedilməzlik nişanəsidir. Əsrlərlə Azərbaycanın ərazisində mövcud olmuş neçə-neçə feodal dövlətin məhz Əlincəni strateji ərazi kimi nəzarətdə saxlamağa çalışması təsadüfi hesab edilə bilməz. Azərbaycan Atabəylər dövlətinin ən qüdrətli dövrlərində buranın xüsusi iqamətgaha çevrilməsi ərazinin və qalanın əhəmiyyətindən xəbər verir.*

Əlincə qalası Naxçıvanın ağır və keşməkeşli tarixinin də, inkişaf və intibah tarixinin də şahididir. Əsrlər boyunca Əlincəqala təkcə işğalçıların, fatehlərin hücumlarına deyil, həm də sərt təbiətin sınaqlarına sinə gərmişdir. Bu gün isə Əlincəqala Naxçıvanla birlikdə özünün yeni intibah dövrünü yaşayır. Əlincəqala bərpa olunub. Muxtar respublikaya dünyanın və ölkənin müxtəlif yerlərindən gələn insanlar bu gün fatehlərin və qəhrəman qala müdafiəçilərinin addımladıqları Əlincəqalada tarixin nostalgiyasını hiss etməyə çalışırlar. Əgər Əlincəqaladakı tarixin izlərini qorumaqla onun bərpası mümkün olmasaydı, yəqin ki, neçə-neçə insanın bu qala haqqında təəssüratları kitab səhifələrindən o tərəfə keçməyəcəkdi. Bəzilərinin fiziki, digərlərinin isə mənəvi ruhu Əlincəqalaya qalxmağa imkan verməyəcəkdi.

Bəs əsrlərin şahidi olan bu qala tarixdə neçə dəfə bərpa olunmuşdur? Adını tarixə yazdıra bilən bərpaçılar kimlərdir? Bu suallara cavab tapmaq üçün tarixin səhifələrini vərəqləyirik.

Hələ XX əsrin 30-40-cı illərində rus alimi İ.Şeblıkin burada apardığı müşahidələr nəticəsində belə bir fikrə gəlmişdir ki, qaladakı binalar dəfələrlə dağılmış və yenidən bərpa olunmuşdur.

### *Eldənizlər dövründə Əlincəqalada bərpa işləri aparılıbmı?*

Mənbələrin və tədqiqatların verdiyi faktları nəzərə alaraq Əlincəqalanın bizə məlum olan ilk bərpasının Eldənizlər dövrünə təsadüf etdiyi ehtimalını irəli sürə bilərik. Məlumdur ki, Azərbaycan Atabəyləri dönəmində mühüm müdafiə tikilisi olan Əlincəqalanın əhəmiyyəti xüsusilə artmış, bura Eldəniz hökmdarlarının ailə üzvlərinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdir. Əlincəqalanın Atabəylər dövründə dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu Sədrəddin Əli əl-Hüseyni "Əxbar əd-dövlət əs-Səlcuqiyyə"də də yazır. Qalanın müdafiə sistemi o dərəcədə möhkəm olmuşdur ki, hətta bir çox Eldəniz hökmdarları ən çətin vaxtlarda məhz Naxçıvana sığınmağa çalışmışlar. Ehtimal etmək olar ki, Naxçıvanı dövlətin mərkəzinə çevirən Şəmsəddin Eldəniz qalanın möhkəmləndirilməsi ilə bağlı müəyyən işlər həyata keçirmişdir. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev yazır ki, Əlincədəki saraylar və yardımçı binaların bir çoxu Azərbaycan Atabəylərinin sifarişi ilə ucaldılmışdır.

Atabəylər dövründə Naxçıvan hakimi Zahidə xatının iqamətgahının Əlincəqalada yerləşdiyi dövrdə də, ehtimal ki, qalada müəyyən tikinti və təmir işləri aparılmışdır.




### *Əlincəqalanın bərpası ilə bağlı məlum olan ilk fərman*

Məlumdur ki, Hülakülər və Teymurilərin dövründə Əlincəqala ciddi hücumlara və dağıntılara məruz qalmış, Əmir Teymura qarşı qala müdafiəçilərinin 14 illik müqaviməti qalanın adını tarixə qızıl hərflərlə həkk etdirmişdir.

Əmir Teymurun və digər Teymuri sərkərdələrinin hücumları zamanı ciddi dağıntılara məruz qalan Əlincə qalasının tarixində ən böyük dağıntılardan biri 1406-cı ilə təsadüf edir. Tarix üzrə fəlsəfə doktoru Rauf Məmmədovun yazdığına görə, həmin ildə Təbriz qazisi İmadəddin Əlincəqalaya hücum edərək qalanı dağıtmışdı. Həmin ilin iyulunda Cəlairi Sultan Əhməd Təbrizi ələ keçirdikdən sonra Naxçıvan ərazisini Təbriz qazisi İmadəddinə soyurqal olaraq vermişdir.

Əlincəqalanın bərpası ilə bağlı məlum olan ilk fərman da bu dövrə aiddir. Məhz Sultan Əhməd Əlincəqalanın möhkəmliyini nəzərə alaraq onun bərpa edilməsi haqqında fərman vermiş və bütün bərpa xərclərini ətrafda yaşayan əhalinin üzərinə qoymuşdur.

### *Səfəvilər dövrünün Əlincə qalası*

Bəzi tədqiqatçılar qalada olan bir sıra memarlıq nümunələrinin – müdafiə tikililərinin, qapıların və sair qurğuların Səfəvilər dövründə inşa edilməsi fikrini irəli sürmüşlər. Nəzərə alsaq ki, Naxçıvan Səfəvilər üçün xüsusi əhəmiyyət kəsb etmiş, I Şah İsmayılın dövründə Naxçıvan ərazisi həm də qış paytaxtı rolunu oynamış və gürcü hakimləri Şah İsmayıl Səfəvidən asılılığı məhz burda qəbul etmişdilər, o zaman Səfəvilər dövründə də qalada müəyyən bərpa işlərinin aparılması ehtimalı güclənir. Tədqiqatçılar qeyd edirlər ki, Səfəvilər dövründən sonra Əlincəqala ciddi dağıntılara uğrasa da, qala XIX əsrdə öz funksiyasını yerinə yetirmişdir. 1826-cı ildə Lala bəy adlı qalabəyi Əlincə qalasında yarım ildən artıq düşmənlə vuruşmuşdur.

### *Müasir dövr Naxçıvan intibahından pay alan Əlincə*

Naxçıvan ərazisində Əlincəqalanın tarixdə növbəti dəfə və ən fundamental miqyaslı bərpası isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun adı ilə tarixə düşmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 11 fevral 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalamışdır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamının icrası ilə əlaqədar olaraq muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınıb pasportlaşdırılarkən Əlincəqala haqqında da məlumatlar toplanmış və bu abidə 2007-ci ildə dünya əhəmiyyətli abidələr sırasına daxil edilmişdir. Beləliklə, Əlincəqalanın təkcə Naxçıvan, ya da ölkəmiz üçün deyil, bütövlükdə dünya tarixi üçün əhəmiyyəti rəsmiləşdirilmişdir.

"Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamdan sonra Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və AMEA Naxçıvan Bölməsi abidənin elmi-bərpa layihəsini hazırlamış, Əlincəqala tarixi memarlıq üslubu ənənələri saxlanılmaqla bərpa edilmiş, burada "Əlincəqala" Muzeyi yaradılmışdır. Bu, Naxçıvanda xalqımızın qəhrəmanlığına dolu keçmişinə dövlət səviyyəsində sayğının və sevginin ifadəsi olmuşdur.

*Bu gün Əlincəqalanın zirvəsində bir bayraq dalğalanır. O bayrağın ilk rəngi bu yurdun kimə məxsus olduğunu ifadə edir. İkinci rəngində bir mübarizə əzmi var o bayrağın, Əlincəqalanın işğalçılara qarşı müqavimətindən doğan bir mübarizə əzmi. Üçüncü rəngi ilə isə bu yurdu təkcə qəhrəman insanların deyil, həm də Allahın qoruduğunu deyir o bayraq. Əlincəqalanın zirvəsində dalğalanan bayraq bu yurdun əmin əllərdə olduğunu, öz tarixi sahiblərində olduğunu və bir daha bu yurdun işğala məruz qalmayacağını, bir daha bu qalanın dağılmayacağını ifadə etməkdədir. Çünki zirvələr yalnız qartallara məxsusdur. Dünya xəritəsinə baxanda isə Azərbaycan qartal formasında görünür. Bir gün bu bayrağın Şuşa qalasında da dalğalanması arzusu ilə...*

*Bu yurd qucaq açıb gör bir kimlərə,*
*Bu yoldan nə qədər karvan keçibdir.*
*Gömürdən şimala üz tutan karvan,*
*Karvan bulağının suyun içibdir.*

# Naxçıvan karvansarayları

Bəli, uzun bir tarixi dövr boyunca Şərqdən Qərbə, Cənubdan Şimala gedən neçə-neçə karvanın izi var bu torpaqlar üzərində. Bu karvanlar bu torpaqlardan təkcə yolların qısalığına görə keçməyiblər, həm də yurdumuzun insanlarının qonaqpərvərliyi, bu yerlərin səfası çəkib gətirib neçə-neçə karvanları buralara. Elə Naxçıvanın müxtəlif ərazilərində qalıqları günümüzə qədər gəlib çatmış neçə-neçə karvansaraylar, ovdanlar, karvansaray bulaqları da məhz buraya bir zamanlar dünyanın ən müxtəlif ölkələrindən yüzlərlə karvanların gəldiyinin xəbərçisidir.

Naxçıvanda İpək Yolu üzərindəki karvansarayların fəaliyyətindən bəhs edən tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev yazır ki, burada indi də yerli əhali arasında yaşayan rəvayətdə I Şah Abbas zamanı Səfəvilər dövləti ərazisində 999 karvansaray tikilməsi haqqında bəhs edilir.

Azərbaycanın başqa yerlərində olduğu kimi, Naxçıvan bölgəsində də bu karvansarayların bəziləri günümüzədək gəlib çatmışdır. Hətta Naxçıvan ərazisindəki bəzi bulaqların adı da məhz karvansaraylarla bağlı olmuşdur. Belə bulaqlardan ikisi Şahbuz rayonunun Gömür kəndindən 7 kilometr şimal-şərqdə, okean səviyyəsindən 2260 metr yüksəklikdə yerləşən Karvansaray bulaqlarıdır. Gömürçayın mənbəyində olan bulaqlar hidrogen-sulfidlidir. Hər iki bulaq suları termaldır.

Bu yazımızda tarixin müxtəlif dövrlərində Naxçıvan ərazisində fəaliyyət göstərmiş karvansaraylardan bəhs edəcəyik.

***Fərhad evi və yaxud Ağ karvansaray***. Şahbuz rayonunun Biçənək kəndindən şərqdə, Batabat yaylağı adlanan ərazidə yerləşən, xalqın yaddaşına adı Fərhad evi kimi həkk olunan abidənin tarixi hələ eramızdan əvvəl I minilliyə gedib çıxır. Lakin tədqiqatçılar Fərhad evinin karvansaray kimi istifadəsini daha çox orta əsrlərə aid edirlər. Tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev bu karvansarayın digər bir adının Aman evi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev isə Ağ karvansaray olduğunu qeyd etmişlər. Dördotaqlı bu karvansarayın səfalı bir yerdə yerləşməsi orta əsrlərdə Naxçıvan-Batabat yolu ilə hərəkət edən karvanların və səyahətçilərin məhz burada dayanaraq istirahət etməsinə səbəb olmuşdur. 1971-ci il 27 mart tarixli "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunan bir məqalədə abidənin yanından keçən qədim yolun kənarında müsafirləra yol göstərən daşın olduğu qeyd edilmişdir. Məlumatdan aydın olur ki, daş iki metr hündürlüyündə olub, yuxarı hissəsi qolları yana açılmış heykələ oxşayırmış.

"Naxçıvan Abidələri Ensiklopediyası"nda göstərilir ki, orta əsrlərdə Naxçıvan-Batabat yolunda gedişgəliş artdığından Fərhad evindən bir qədər şimalda iri karvansaray tikilmişdir. Yerli əhali bunu "Şah Abbas karvansarayı" adlandırmışdır.

***Xaraba Gilan karvansarayı***. Xaraba Gilan ərazisi Naxçıvanda şəhər mədəniyyətinin ən möhtəşəm incilərinin qalıqlarını özündə bu gün də yaşatmaqdadır. Arxeoloq Bəhlul İbrahimlinin rəhbərliyi ilə uzun illər ərzində burada aparılan tədqiqatlar nəticəsində aşkarlanan çoxsaylı maddi-mədəniyyət nümunələri, şəhər tikililəri, ərazi barədə tarixi mənbələrdə verilən məlumatlar bu şəhərin ticarət yolları üzərində mühüm nöqtələrdən biri olduğunu sübut edir. Naxçıvan ərazisində yerləşən ən möhtəşəm şəhər karvansaraylarından biri də məhz Xaraba Gilandadır. Xaraba Gilan ərazisində arxeoloqlar tərəfindən şərti olaraq II və III məhəllələr adlandırılan məhəllələrin arasında yerləşən bu karvansaray böyük bir qaya üzərindədir. Tədqiqatçıların qeydlərindən aydın olur ki, bu karvansaray kompleksi yataq, məişət, təsərrüfat otaqlarından, anbarlardan və tövlələrdən ibarət olmuşdur.

***Culfa karvansarayı***. XII-XIII əsrlərə aid edilən Culfa karvansarayı nəinki Naxçıvan Muxtar Respublikası ərazisində, ümumilikdə, müasir Azərbaycan Respublikasının ərazisində elm aləminə məlum olan ən böyük karvansaraydır. Ümumi uzunluğu 37 metr olan Culfa karvansarayı şəhər karvansarayları qrupuna aid olub, orta əsrlərdə Culfa şəhərinin daşıdığı mühüm ticarət əhəmiyyətindən xəbər verməkdədir. Çoxsaylı otaqları, böyük zalların qalıqları bu gün də qalmaqda olan Culfa karvansarayı rayonun Gülüstan kəndi ərazisində yerləşir.

***Yuxarı Əylis karvansarayı***. Ordubad rayonunun Yuxarı Əylis kəndinin mərkəzində, bazar meydanının cənubunda yerləşmiş karvansaray XVII əsr Əylis şəhərinin ən möhtəşəm tikililərindən biri olmuşdur. Karvansarayın dövrümüzə qədər gəlib çatmış cənub və qərb divarlarını və zirzəmilərini görmüş tədqiqatçılar bu karvansarayın Naxçıvan ərazisində butipli ən möhtəşəm tikililərdən biri olduğu fikrindədirlər.

***Camaldın karvansarayı***. Naxçıvanda ən qədim karvansaraylardan biri də Culfa rayonunun Camaldın kəndi ərazisində olmuşdur. "Naxçıvan Abidələri Ensiklopediyası"nda verilən məlumatdan aydın olur ki, tarixi XII-XVII əsrlərə aid edilən bu karvansaray 6750 kvadratmetr ərazidə yerləşmişdir. Ərazidə dördkünc formalı tikintilərin qalıqları bu gün də qalmaqdadır.

***Haçadağ karvansarayı.*** Haçadağ (İlandağ) ətrafından keçən karvan yollarını öyrənərkən tarix üzrə fəlsəfə doktoru Elbrus İsayev tərəfindən aşkara çıxarılmış karvansaraylardan biri də hündürlüyü 3 metr 50 santimetr, uzunluğu 12 metr, eni isə 7 metr olan karvansaraydır. Tədqiqatçı tikiliş üslubunu nəzərə alaraq bu karvansarayın XVI əsrdə tikilməsi qənaətinə gəlmişdir.

***Sədərək karvansarayı***. Məlumdur ki, Sədərək ərazisi tarixən Şərqdən Qərbə doğru hərəkət edən karvanların əsas keçid məntəqələrindən biri olmuşdur. Naxçıvan ərazisində əsas karvansaraylardan biri də indiki Sədərək kəndinin cənubunda yerləşmiş və hətta XX əsrin əvvəllərinə qədər fəaliyyət göstərmişdir. Bu barədə məlumata 1921-ci ilə aid bir arxiv sənədində rast gəlirik. Belə ki, "Naxçıvan MSSR-in inzibati-ərazi bölgüsünün sxemi" adlı sənəddə Şərur qəzasının Sədərək rayonunun 37 yaşayış məntəqəsi sırasında "Karvansaray" adlı bir məntəqənin də adı qeyd edilmişdir.

Naxçıvan tarixboyu olduğu kimi, bu gün də qonaq-qaralıdır. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Naxçıvanın blokadaya alınması nəticəsində orta əsrlərdəki kimi, Cənubdan Şimala doğru olmasa da, Şərqdən Qərbə doğru gedən maşın karvanlarının hərəkət istiqamətlərindən biri də məhz Naxçıvan xətti olur. Orta əsrlərdə olduğu kimi, bu gün də Naxçıvana dünyanın müxtəlif ölkələrindən səyyahlar və qonaqlar gəlir. Gələn qonaqların üz tutduqları ünvanlar isə tarixi möhtəşəm Naxçıvan karvansaraylarının varisləri hesab edə biləcəyimiz Naxçıvan mehmanxanalarıdır. "Təbriz", "Duzdağ", "Grand-Naxçıvan", "Avtovağzal", "Nəxşicahan" mehmanxana və otelləri muxtar respublikanın paytaxtına, "Ağbulaq", "Araz", "Elsevər" mehmanxana, otel və istirahət mərkəzləri isə muxtar respublikanın rayonlarına üz tutan insanların doğma evlərinin əvəzedicisinə çevrilir.

Səhifəni hazırladı: Elnur KƏLBİZADƏ

## Beynəlxalq Tələbə-Gənclər Həftəsində keçirilən yarışların qalibləri mükafatlandırılıb





***Noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında yarışların qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.***

Naxçıvan şəhərindəki Gənclər Mərkəzində təşkil edilən təltifetmə mərasimində çıxış edən gənclər və idman naziri Azad Cabbarov bildirib ki, ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasəti uğurla davam etdirilir, gənclər siyasətinin bütün istiqamətləri üzrə dövlət proqramları icra olunur. Gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, onların sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali məktəblərdə təhsil alan tələbə-gənclərin milli dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ruhunda yetişib formalaşması üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu baxımdan hər il Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Bu il də Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə bağlı 10-17 noyabr tarixlərində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə müxtəlif tədbirlər keçirilib. Bu gün isə keçirilən tədbirlərdə qalib gəlmiş komandalar və həmin tədbirlərdə fəal iştirak edən gənclər mükafatlandırılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxışında qeyd edib ki, gənclərin asudə vaxtının səmərəli təşkili, onların yaradıcılıq potensialının üzə çıxarılması və fiziki inkişafı daim diqqət mərkəzindədir. Naxçıvanda tələbə-gənclər həftəsi hər il yüksək səviyyədə qeyd olunur. Gənclərimizin qarşısında idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan nailiyyətlərlə yanaşı, həm də dövlətçilik ənənələrini daim uca tutmaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyümək kimi müqəddəs vəzifələr durur.

Sonra qaliblər mükafatlandırılıb. Yekun nəticəyə əsasən, “Nuh yurdu” intellektual oyununun qalibi adını Naxçıvan Dövlət Universitetinin “Təbriz” komandası qazanıb. “Naxçıvan” Universitetinin “Qafqaz” komandası ikinci, Naxçıvan Dövlət Texniki Kollecinin “Naxçıvan” komandası üçüncü olub. Şən və hazırcavablar klubları arasında keçirilən müsabiqənin qalibi isə Naxçıvan Dövlət Universitetinin “Karvan” komandası olub. Naxçıvan Müəllimlər İnstitutunun “Nəqşicahan” komandası ikinci, Naxçıvan Dövlət Texniki Kollecinin “Gülüş” komandası üçüncü yerlə kifayətləniblər.

Mükafatları qaliblərə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev təqdim edib.

Sonda konsert proqramı olub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Yaşadılan tarixim qürurum, vüqarımdır


*Möminə xatın məqbərəsi*

**Gün olub yağmalanıb bu ulusun sərvəti, gün olub talanıbdı tarixin səltənəti. Yazılıb yad əlilə mənim ulu keçmişim, yaddaşlardan silinib böyük, şanlı tarixim. Daşınıb əllər üstə kitabələr, əsərlər, unudulmaq istənib mənim milli kimliyim. Duyulmayıb illərcə tariximin harayı, uçulub kərpic-kərpic yaddaşımın sarayı, yaşayıb var olmağı haqq edən tariximə Yaşa! – deyən olmayıb bir İnsandan savayı...**

O zaman ki ucaldı səmalarda bayrağım, yenidən vərəqləndi qədim tarix kitabım, bu torpağın üstündə ucaldı abidələr, təkrar-təkrar oxundu toz basmış səhifələr. Araz nəfəsli yurdun bu gün hər qarışında, qayasında, daşında yatan tarix oyanıb, əsrlərdir vətənçün gedən yurd savaşında, elimin insanları böyük zəfər qazanıb.

Tarixin daş naxışı qədim Gəmiqayamın qoynunda yatan sirlər güntək aşkarlananda, Əlincəm bir zirvədə yenidən ucalanda, rəngin qövsi-qüzehdən almış parlaq, şanlı bayrağım coşub dalğalananda bütün dünya bilib ki, bu elin tarixi var, min illərdən bu günə gətirən uzun yolu, böyük bir keçmişi var. Bu yolda ucalıbdı gözəl Gülüstanım da, bu yolda məğrur durub böyük Əlincəm kimi igidlik dastanım da. Müqəddəs Xanəgahım mənəvi dayağımdı, yeddi kimsənə yurdu, umanların ocağı, müqəddəs Əshab-Kəhfim iman dəryamda üzən yelkənli qayığımdı.

Yurdumun paytaxtı da bir ayrı mənzərədi, keçmişimə açılan şəffaf, büllur şüşəli böyük bir pəncərədi. Əvvəllər yeksan olmuş bir qalanın yerində indi məğrurdan-məğrur bir istehkam ucalır – adı Naxçıvanqala. Öncələr xatirəsi min illərin dibinə gömülmüş bu qalanın indi başqa bir halı, başqa bir büsatı var, unutqanlıq, soyuqluq girdabından qurtulmuş, bu gündən nəfəs almış yeni bir həyatı var. Əcəmi seyrəngahı yurdumun aynasıdı, daş qoçlarla, sarayla, türbəylə bəzədilmiş bir tarix mirasıdı.

Fəxr edirəm səninlə, ey qədim Naxçıvanım, gündən-günə ucalan, artan şöhrətimşanım! Aylar-illər ötəcək, səninçün tarixlərə qızıl hərflə düşmüş möhtəşəm yüzillikdə bütün görülən işlər qiymətli bir keçmişə, bir tarixə dönəcək. Yaşadılan tarixim, qürurum vüqarımdı, ulu şanlı keçmişim vuran şah damarımdı. Bütün görülən işlər, ucalan abidələr tarixə əl uzadan düşmənə bir zərbədi, əlçatmaz və ünyetməz, xoş əməldən yaranan intəhasız zirvədi...

**✍ Səbuhi HÜSEYNOV**


*Nuh Peyğəmbərin məzarüstü türbəsi*


*Gülüstan türbəsi*


*“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi*


*Gəmiqaya muzeyi*


*Əshabi-Kəhf ziyarətgahı*


*Xanəgah Abidə Kompleksi*

**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 870